NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.

Heydər Əliyev

Azərbaycan işıqları

"Azərenerji" ASC-nin orqanı | **17 MART 2016-cı il CÜMƏ AXŞAMI** | **№ 5 (1131)** | **www.azerenerji.gov.az**

"Novruz bayramı mənşəyini uzaq keçmişimizin ən dərin qatlarından alıb Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək layiqincə yaşadır. Tanrının misilsiz hikmətlə yaratdığı təbiətə sonsuz sevgi və yüksək ehtiramın parlaq təzahürü olan bu bayramda ulu babalarımızın minilliklərin sınağından çıxmış həyat fəlsəfəsi dolğun təcəssümünü tapmışdır... Ali ümumbəşəri dəyərlərin daşıyıcısı Bahar bayramının dünya irsinin şah əsərləri sırasında olması hər bir azərbaycanlıya qürur verir".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

RƏSMİ XRONİKA

28 fevral

- Prezident İlham Əliyev İtaliya Respublikası Nazirlər Şurasının dövlət katibi Klaudio De Vinçentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

29 fevral

- Prezident İlham Əliyevin iştirakı ilə Bakıda, "Four Seasons" otelində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı işə başlayıb.
- Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini, Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviçi, Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Berat Albayrakı, Gürcüstanın Baş nazirinin müavini və energetika naziri Kaxa Kaladzeni qəbul edib.
- Prezident İlham Əliyevin iştirakı ilə Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı keçirilib. Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.
- Prezident İlham Əliyev və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Mogerini Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısının Birgə Bəyannaməsinin imzalanma mərasimində iştirak ediblər.
- Prezident İlham Əliyev ilə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini arasında geniş tərkibdə görüş olub.
- Prezident İlham Əliyev tərəfindən Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerininin şərəfinə ziyafət verilib.

1 mart

- Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramuntu, Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Rəşad Mahmudun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıda göstərilən təşkilatlarda çalışan rəhbər və digər işçilərin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) aylıq vəzifə maaşlarının 2016-cı il martın 1-dən orta hesabla 10 faiz artırılması barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycan aşıq sənətinin inkişafında xidmətlərinə görə Ulduz Əsgər qızı Quliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasında təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə bir qrup şəxsə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi haqqında sərəncam verib.

2 mart

- Prezident İlham Əliyev Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafında xidmətlərinə görə Həsən İbrahim oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Bakı şəhəri Sabunçu rayonunun Nardaran qəsəbəsinin daxili avtomobil yollarında yenidənqurma işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən on yeddi milyon dörd yüz min manat ayrılması haqqında sərəncam verib.

3 mart

- Prezident İlham Əliyev Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev Mahmud Nayfalı oğlu Quliyevin Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Akif İsmayıl oğlu Səlimovun Laçın Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam verib.
- Prezident İlham Əliyev Formula 1 Avropa Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binalarda zəruri təmir işlərinin davam etdirilməsi məqsədi ilə Sumqayıt Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan doqquz milyon manat, o cümlədən çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi üçün altı milyon beş yüz min manat, lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün iki milyon beş yüz min manat ayrılması barədə sərəncam verib.

4 mart

- Prezident İlham Əliyev Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edib, cansağlığı, səadət və uğurlar arzulayıb.
- Prezident İlham Əliyev Tahir Abuzər oğlu Kərimovun Salyan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi barədə sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Sevindik Hacağa oğlu Hətəmovun Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib Salyan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi barədə sərəncam verib.

5 mart

- Prezident İlham Əliyev BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifainin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

6 mart

- Prezident İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Macarıstanın Baş naziri Viktor Orban ilə təkbətək görüşü olub.

Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkküründə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər.

Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır.

Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq UNESCO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Mən azərbaycançılıq məfkurəsi işığında sıx birləşməklə bayramı ölkəmizin hüdudlarından kənarda bizimlə bərabər qarşılayan soydaşlarımıza firavanlıq, əmin-amanlıq və ruh yüksəkliyi arzu edirəm.

Həmrəyliyimizin rəmzi bu bayram qoy hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 mart 2016-cı il.

Prezident İlham Əliyev: "Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir"

♦ Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasına işgüzar səfər edib. Ankarada Türkiyə Respublikası Prezidentinin Sarayında dövlətimizin başçısının rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə edilib. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının əlaqələrimizin daha da dərinləşməsi işinə xidmət etdiyi vurğulanıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib. İclasda ölkələrimiz arasında həyata keçirilən enerji, nəqliyyat layihələrinin icrası, qarşılıqlı investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Ankarada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdıqdan sonra prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Protokolu"nu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair Protokol"u Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının şəxsi heyət üzrə rəisi, korpus generalı İlhan Talu imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və konsulluqların əməkdaşlarının ailə üzvlərinin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyənin xarici işlər naziri Mövlüd Çavuşoğlu imzalayıblar.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin daxili işlər naziri Efkan Ala imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında Saziş"i Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyənin daxili işlər naziri Efkan Ala imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və Türkiyə Respublikası Baş nazirinin müavini Yalçın Akdoğan imzalayıblar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident Rəcəb Tayyib Ərdoğan bəyanatında deyib: "Çıxışımın əvvəlində azərbaycanlı qardaşlarımıza terror hücumundan sonra Ankaraya gələrək göstərdikləri güclü həmrəyliyə görə təşəkkürümü çatdırıram. Biz bu gün Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasını əslində Bakıda keçirməli idik. Ancaq sağ olsun qardaşım Əliyev bu hadisə ilə əlaqədar dedi ki, biz gələk və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını Bakıda deyil, təkrar olsa da Ankarada keçirək.

Mən bu səfəri, bu gün burada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını həm bu hadisə ilə bağlı birlikdə gücümüzü, həmrəyliyimizi, həm də bütün terror hücumlarına qarşı birlikdə olduğumuzu milli və beynəlxalq miqyasda göstərmək baxımından çox yüksək qiymətləndirirəm. Mən Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bu iclasının Ankaramızda keçirilməsini çox təqdirəlayiq hesab edirəm və mərhum Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" anlayışının daha bir təzahürü olduğunu bildirirəm. Qardaşım İlham Əliyev Azərbaycanın milətimizin dar günündə dostu olduğunu bir daha göstərdi. Buna görə ona dərindən təşəkkürümü bildirirəm".

Türkiyə Prezidenti bildirib ki, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasında enerji, nəqliyyat məsələləri birlikdə müzakirə edilib. Bununla yanaşı, müdafiə, hərbi və bütün bu istiqamətlərdə əməkdaşlıq müzakirə edilib.

Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, Azərbaycan ilə birlikdə həyata keçirdiyimiz ən mühüm layihə TANAP-dır. TANAP-da işlər əvvəlcədən nəzərdə tutulan plana uyğun olaraq sürətlə irəliləyir. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də nəqliyyat sahəsindəki mühüm layihəmizdir. Londondan Pekinə qədər dəmir yolu nəqliyyatını mümkün edəcək layihənin dekabrda birlikdə açılışını edəcəyik. Ticari əlaqələrimizə gəldikdə, qlobal iqtisadi böhran və neftin qiymətinin aşağı düşməsi 2015-ci ildə inkişaf tempinə təsir edib. Buna baxmayaraq, 2023-cü il üçün 15 milyard dollarlıq hədəfimizi qüvvədə saxlayırıq və bunu həyata keçirmək üçün lazım olan tədbirləri görəcəyik. Qarşılıqlı sərmayə qoyuluşu hazırda 13 milyard dollar səviyyəsindədir. Bunu da artıraraq, beş ildə 20 milyard dollar səviyyəsinə çatdırmağı planlaşdırırıq. İclasımızda xüsusilə Naxçıvanın artan ixracat potensialını dəyərləndirərək müştərək fəaliyyətə qərar verdik. İstər Naxçıvanın məhsullarını ölkəmizdə görmək, istərsə də onun turizm imkanlarından yararlanmaq mühüm istiqamətdir. Görüşlərimizdə hərbi sənaye və təhlükəsizlik məsələlərini bir daha müzakirə etdik. Müdafiə sənayesi sahəsində bəzi konkret addımların atılmasını qərarlaşdırdıq. Qarşıdakı aylarda keçiriləcək üçüncü Türkiyə-Azərbaycan Müdafiə Sənayesi Əməkdaşlığı Toplantısının bu baxımdan mühüm fürsət olacağına inanıram.

Prezident İlham Əliyev bəyanatında deyib: "İlk növbədə, iki gün bundan öncə Ankarada törədilmiş amansız terror aktı ilə əlaqədar Azərbaycan xalqı və dövləti adından qardaş türk xalqına başsağlığı vermək istəyirəm. Allah ölənlərə rəhmət eləsin, yaralananlara şəfa versin. Qurbanların yaxınlarına, qohum-əqrəbalarına Allah səbir versin.

Bu dəhşətli terror aktını qətiyyətlə pislənirik, qınayırıq və bir daha deyirik ki, biz bu gün türk xalqının yanındayıq. Bizim birliyimiz əbədidir, sarsılmazdır. Yaxşı günlərdə də, ağır günlərdə də biz daim bir-birimizin yanındayıq. Biz Azərbaycanda tam əminik ki, Türkiyə xalqına və dövlətinə qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda, türk xalqının iradəsinə təsir edə və Türkiyəni haqq yolundan döndərə bilməz".

Dövlətimizin başçısı deyib ki, iyirmi beş il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini bərpa etdi və bizi ilk tanıyan dövlət Türkiyə oldu. Bu, əslində, başqa ölkələrə də bir tövsiyə idi və ondan sonra Azərbaycanı müstəqil dövlət kimi tanıma prosesi sürətlə getməyə başladı. Bu illər ərzində biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bu gün Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır. Biz bütün sahələrdə uğurla əməkdaşlıq edirik. Bu gün burada imzalanan sənədlər, apardığımız danışıqlar bizim birliyimizi bir daha nümayiş etdirir.

"Təsadüfi deyil ki, keçən ilin noyabr ayında Türkiyə "Böyük 20"liyə ev sahibliyi etmişdir. Bizi fərəhləndirən məsələ ondan ibarətdir ki, Türkiyə bu mötəbər tədbirə Azərbaycanı dəvət etmişdir. Türkiyə bir ölkəni dəvət edə bilərdi, o ölkə də Azərbaycan oldu", - deyən Azərbaycan Prezidenti bildirib ki, Türkiyə nə qədər güclü olarsa, bir o qədər biz güclü olacağıq. Türkiyə hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq normalarına uyğun həllinin tərəfdarı olub və bu dəstək bu gün də göstərilir. Azərbaycanın ərazi bütövlüyü pozulub, bərpa edilməlidir, beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilməlidir. Biz bu məsələ ilə bağlı ikili standartlarla üzləşmişik və Türkiyə kimi böyük dövlətin göstərdiyi dəstək bizim üçün çox önəmlidir. Bizi hərbi əməkdaşlıq birləşdirir. Hərbi-texniki sahədə əməkdaşlıq dərinləşir. Biz Türkiyədən müxtəlif hərbi texnika, silahlar alırıq. Türkiyənin bu sahədəki uğurları Azərbaycanın da müdafiə potensialını gücləndirir.

"Əziz qardaşım qeyd etdiyi kimi, enerji layihələri bizi birləşdirir. 2012-ci ildə məhz Türkiyə və Azərbaycan TANAP layihəsinə start verdi. Əgər o vaxt biz TANAP layihəsinə start verməsəydik, bu gün "Cənub Qaz Dəhlizi" layihəsi reallaşa bilməzdi. Bu gün bu dəhlizin icrasında Türkiyə və Azərbaycan aparıcı rol oynayır", - deyən dövlətimizin başçısı bildirib ki, nəqliyyat sahəsində bizim birgə icra etdiyimiz layihə qitələri birləşdirir. Bu gün bu məsələ geniş şəkildə müzakirə olundu və artıq nəqliyyat sahəsində yeni imkanlar mövcuddur.

Prezident İlham Əliyev deyib ki, mədəniyyətlərarası dialoqun dərinləşməsi işində Türkiyənin xüsusi rolu var. Türkiyənin, Azərbaycanın dünya mədəniyyətinə verdikləri töhfə beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Biz İslamafobiyaya qarşı birgə səylərlə mübarizə aparırıq.

"Bir sözlə, bizim aramızdakı əlaqələr demək olar ki, bütün sahələri əhatə edir. Bir daha qeyd etmək istəyirəm, - mən hesab edirəm və əminəm ki, həm Türkiyədə, həm Azərbaycanda bu fikirlə hər kəs razı olar, - bu gün dünya çapında Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olan ölkələr yoxdur", - deyən Prezident İlham Əliyev bildirib ki, bu birlik bizim milli sərvətimizdir. Biz bu birliyi qoruyuruq, qoruyacağıq. Gələcək illərdə biz bundan da böyük qələbələr əldə edəcəyik.

RƏSMİ XRONİKA

7 mart

- Prezident İlham Əliyev Gürcüstanın xarici işlər naziri Mixeil Canelidzeni qəbul edib.
- Prezident İlham Əliyev altmış üç min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Maştağa-Bilgəh avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən iki milyon beş yüz min manat ayrılması barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycanda xalçaçılıq sənətinin inkişafında xidmətlərinə görə Vidadi Aydın oğlu Muradovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılmaları barədə sərəncam verib.
- Prezident İlham Əliyev Cavanşir Əşrəf oğlu Axundovun Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda, Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılaraq Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi barədə sərəncam imzalayıb.

8 mart

- Prezident İlham Əliyevin və Azərbaycanda rəsmi səfərdə olan Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin əvvəlcə geniş tərkibdə, daha sonra təkbətək görüşləri keçirilib, Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi olub.
- Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri, Latviya Respublikasının keçmiş Prezidenti xanım Vayra Vike-Freyberqanı və Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini, Rusiya Federasiyasının “Qazprom” Şirkətinin idarə heyətinin sədri Viktor Zubkovu qəbul edib.

9 mart

- Prezident İlham Əliyev Ukraynanın keçmiş Prezidenti Viktor Yuşenkonu, İordaniya Haşimilər Krallığının keçmiş Baş naziri Abdelsalam Al-Macalini, Serbiya Respublikasının keçmiş Prezidenti Boris Tadiçi, İsrail Dövlətinin keçmiş Baş naziri Ehud Barakı, Xorvatiya Respublikasının keçmiş Prezidenti Stepan Mesiçi, Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviçi qəbul edib.

10 mart

- Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva Azərbaycanın paytaxtında “Çoxqütblü dünyaya doğru” mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılış mərasimində iştirak ediblər.
- Prezident İlham Əliyev IV Qlobal Bakı Forumunda iştirak edən Bolqarıstan Prezidenti Rosen Plevnelievi, Gürcüstanın Prezidenti Giorgi Marqvelaşvilini, Makedoniya Respublikasının Prezidenti George İvanovu, Albaniya Respublikasının Prezidenti Buyar Nişanini, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniçi, Polşanın sabiq Prezidenti Bronislav Komorovskini və İsrailin sabiq xarici işlər naziri Tsipi Livnini qəbul edib.
- Prezident İlham Əliyev IV Qlobal Bakı Forumunun rəsmi açılışından sonra “Euronews” telekanalına müsahibə verib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından IV Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilib.

11 mart

- Prezident İlham Əliyev İran İslam Respublikasının Sərhəd Qoşunlarının Komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini, Latviya Respublikasının sabiq Prezidenti Valdis Zatlersi, Finlandiya Respublikasının sabiq Prezidenti xanım Tarya Haloneni, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini - Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişovu qəbul edib.

12 mart

- Prezident İlham Əliyev Moldova Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri George Leukanın etimadnaməsini qəbul edib.

13 mart

- Prezident İlham Əliyev Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Ankara şəhərində törədilmiş amansız terror aktı nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar həm öz adından və həm də Azərbaycan xalqı adından başsağlığı teleqramı göndərib.

14 mart

- Prezident İlham Əliyev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev Elçin Məmməd oğlu Hüseynəliyevin Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi, Rasim Vaqif oğlu Hüseynovun Naxçıvan Muxtar Respublikasının Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi barədə sərəncam imzalayıb.

15 mart

- Prezident İlham Əliyev Türkiyə Respublikasına işgüzar səfərə gedib. Ankarada Türkiyə Respublikası Prezidentinin Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

16 mart

- Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

“Multikulturalizm ili”nə dair Tədbirlər Planı təsdiq edilib

♦ **Prezident İlham Əliyev “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi müəyyən edilib. Nazirlər Kabinetinə 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etmək tapşırılıb.

Novruz bayramı münasibətilə Silahlı Qüvvələrdə silsilə tədbirlər keçiriləcək

♦ **Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Novruz bayramı ilə əlaqədar Silahlı Qüvvələrdə keçiriləcək tədbirlər planını təsdiq edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana əsasən birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, mərkəzi və qarnizon zabitlər evlərində, klub və kitabxanalarda silsilə bayram tədbirləri keçiriləcək.

Bayram günlərində “Heydər Əliyev və Azərbaycan xalqının milli mənəvi dəyərləri” mövzusunda mühazirələrin, tarixçilərin, folklorşünas alimlərin, veteranların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə “dəyirmi masa”ların, bir sıra mədəni-kütləvi tədbirlərin təşkili, eləcə də “Əsgər baharı-2016” festivalının keçirilməsi nəzərdə tutulub.

MİLLİ MƏCLİSDƏ

Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti barədə hesabatı dinlənilib

♦ **Martın 15-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyətinə dair illik hesabatı dinlənilib.**

İclasda əvvəlcə martın 13-də Türkiyədə törədilmiş terror aktı nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra gündəlik təsdiq olunub.

Milli Məclisin sədri Oqtay Əsədov ötən il ölkə iqtisadiyyatında əldə olunan uğurlar barədə danışıb.

Oqtay Əsədov deyib ki, ötən il dünya iqtisadiyyatında mənfi meyillər daha da güclənib, iqtisadi fəallıq xeyli zəifləyib. Təbii ki, bu mənfi meyillər Azərbaycandan da yan keçməyib. Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət bu mənfi meyillərin ölkə iqtisadiyyatına təsirini minimuma endirib. Ümumi daxili məhsulun 1,1 faizlə ifadə olunan artımı indiki şəraitdə məqbul hesab edilə bilər. Artım bütövlükdə qeyri-neft sektorunun payına düşür.

Parlamentin sədri deyib ki, Azərbaycan hər zaman investisiya qoyuluşu üçün cəlbedici olub. Keçən il bu, özünü bir daha göstərib. 2015-ci ildə ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsinə 16 milyard manata yaxın vəsait qoyulub. Bu vəsaitin 56 faizi daxili maliyyələşmə hesabına təmin olunub. Ötən il ölkənin neft sektoruna 7,1 milyard, qeyri-neft sektoruna 8,8 milyard manat investisiya ayrılıb. Bu, qeyri-neft sektorunda sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradıb.

Qeyd edilib ki, 2015-ci ildə Azərbaycan dünyanın 165 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib. Bu dövriyyənin 47 faizi və ixracın 60 faizi Avropa İttifaqı dövlətlərinin payına düşür.

Milli Məclisin sədri vurğulayıb ki, Nazirlər Kabinetinin illik hesabatının parlamentdə dinlənilməsi dövlət hakimiyyəti orqanları arasında əlaqələrin güclənməsinə, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasına və həllinə kömək edir. Ötən il hesabatın müzakirəsi zamanı Milli Məclisin deputatlarının verdiyi təkliflər hökumət tərəfindən diqqətlə araşdırılıb. Həmin təkliflərin bir çoxu hökumətin özünün gələcək işində əməli məsələlər kimi qiymətləndirilib və hesabatda əksini tapıb.

Sonra Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti barədə hesabatla çıxış edib.

Baş nazir deyib ki, hesabat ilində iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulun dəyəri real ifadədə 1,1 faiz artıb. Diqqətəlayiq haldır ki, qeyri-neft sənayesində artım 10 faiz təşkil edib. Əsas kapitala yönəldilən 16 milyard manat vəsaitin 55 faizindən çoxu qeyri-neft sektorunun payına düşüb.

Orta aylıq əməkhaqqı 5 faiz, əhalinin gəlirləri 5,7 faiz artıb, illik inflyasiya isə 4 faiz səviyyəsində qeydə alınıb.

İqtisadiyyatın inkişafında və əhalinin həyat səviyyəsinin yüksəldilməsində əhəmiyyətli yer tutan regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramının icrasına il ərzində bütün mənbələr hesabına 3,6 milyard manat vəsait yönəldilib. Həmin Proqramda sənaye parklarının və məhəllələrinin, logistik mərkəzlərin, iri fermer təsərrüfatlarının yaradılması, yeni emal müəssisələrinin və iş yerlərinin açılması, istehsal və sosial infrastrukturun səviyyəsinin daha da yüksəldilməsi prioritet kimi qarşıya qoyulub. Belə ki, keçən il istehsal və sosial infrastrukturun yenidən qurulması ilə bağlı mühüm işlər görülüb, 400 kilometrdən artıq respublika və yerli əhəmiyyətli, 600 kilometrə yaxın kəndlərarası yollar çəkilib. Rayonlarda 2 elektrik stansiyası istifadəyə verilib, onlarla yarımstansiya quraşdırılıb və ya təmir edilib, minlərlə kilometr elektrik və qaz xətləri çəkilib, 430 yaşayış məntəqəsi təbii qazla təmin olunub.

Son illər qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində əhəmiyyətli işlər görüldüyünü qeyd edən Baş nazir deyib ki, əvvəlki illərdə çoxsaylı istehsal və sosial infrastrukturun yaradılması qeyri-neft sektorunun inkişafını şərtləndirən əsas amillərdəndir. Bəzi opponentlərimiz bunu qəbul etmək istəməsələr də, faktlar reallığı daha dəqiq əks etdirir. Belə ki, son on iki ildə ölkənin müxtəlif regionlarında 25 elektrik stansiyası tikilərək istismara verilib, 10 min kilometrdən çox elektrik xətləri çəkilib, 1500-dən artıq yarımstansiya inşa edilib və yenidən qurulub. Bölgələrdə qazlaşdırılmanın səviyyəsi 80 faizədək yüksəlib. Bu müddətdə 10 min kilometrdən artıq respublika və yerli əhəmiyyətli avtomobil yolları salınıb və yenidən qurulub, 421 yeni körpü, yol qovşağı, keçid və tunel tikilərək istifadəyə verilib.

Artur Rasizadə ötən il digər sosial-iqtisadi sahələrdə əldə edilmiş nəticələr barədə də ətraflı məlumat verib.

Daha sonra hesabat məruzəsi ətrafında müzakirələr aparılıb. Müzakirələrdən sonra Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti barədə hesabatı səsə qoyularaq qəbul edilib.

Daha sonra Milli Məclisin iclasında “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası qanununun layihəsi üçüncü oxunuşda, “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” qanun layihəsi ikinci və üçüncü oxunuşlarda müzakirə edilib.

Hər iki qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq qəbul olunub.

IV QLOBAL BAKI FORUMU

Enerji təhlükəsizliyi mövzusunda maraqlı müzakirələr

♦ **Dördüncü Qlobal Bakı Forumunun “Enerji təhlükəsizliyi və qlobal idarəçiliyin perspektivləri nədir?” mövzusunda keçirilən panel iclası Almaniyanın müdafiə nazirinin sabiq müavini, sabiq dövlət katibi, Avropa Enerji və Resurs Təhlükəsizliyi Mərkəzinin direktoru Friedbert Pflügerin moderatorluğu ilə davam edib.**

Azərbaycanın energetika naziri Natiq Əliyev iclasda çıxış edərək ölkəmizin enerji ehtiyatları barədə ətraflı məlumat verib. Bir çox ölkələrin enerji problemləri ilə rastlaşdığını söyləyən Natiq Əliyev enerji ehtiyatlarının iqtisadiyyatın aparıcı qüvvəsi olduğunu vurğulayıb. Avropanın son on il ərzində enerji resurslarını axtarmağa başladığını bildirən nazir Xəzər regionunun Avropa İttifaqı üçün perspektivli məkan olduğunu diqqətə çatdıraraq deyib: “Biz dünyanın enerji xəritəsinə baxsaq görərik ki, enerji bazarı dəyişikliklərə məruz qalır. Azərbaycan zəngin neft və qaz ehtiyatlarına malikdir. Bu, ölkənin gələcək depozitləri deməkdir. “Cənub Qaz Dəhlizi” layihəsi əsas amil olaraq Avropanın enerji təhlükəsizliyi üçün önəmli rol oynayır. Bu yaxınlarda Bakıda “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində enerji nazirlərinin ikinci toplantısı oldu. Bir çox maliyyə institutlarının nümayəndələri bu görüşdə iştirak etdilər və layihənin icrasının hazırkı gedişini yüksək qiymətləndirdilər. Planlaşdırıldığı kimi, istehsal olunan qaz 2018-ci ilin sonunda Türkiyə bazarına çatacaq. Neftin hazırkı qiyməti istehsalçı ölkələr üçün o qədər də əlverişli deyil. Yaxın gələcəkdə neftin qiymətində artım müşahidə edəcəyik. Alternativ enerji barədə danışarkən iqlim məsələlərini nəzərə almalıyıq. Azərbaycan əlverişli iqlimə malikdir. Bu, alternativ enerjinin istehsalı üçün yaxşı imkan deməkdir”.

Afrikada enerji ehtiyatlarının gələcək üçün önəmli amillərdən biri olduğunu deyən Nigeriyanın sabiq Prezidenti Olusegun Obasanjo bu istiqamətdə əməkdaşlığı davam etdirməyin əhəmiyyətinə toxunub. Nigeriyanın bütövlükdə Afrikanın ehtiyacı olan enerjinin 50 faizini istehsal etmək gücünə malik olduğunu bildirən Olusegun Obasanjo neftin qiymətini öncədən müəyyən etməyin mümkünsüzlüyünü, hazırkı vəziyyətin istehsalçı ölkələr üçün əlverişli olmadığını diqqətə çatdırıb. OPEK-in neftin qiymətinə təsir edə bilmədiyini söyləyən Nigeriyanın sabiq Prezidenti qiymətlərdəki ucuzlaşmanın uzun müddət davam etməyəcəyini vurğulayıb.

Latviyanın sabiq Prezidenti Valdis Zatlers enerji təhlükəsizliyi məsələsindən danışaraq bunun bütün ölkələrin maraqlarına uyğun olduğunu söyləyib. Enerji təhlükəsizliyinin getdikcə xarici siyasətin əsas prioritetlərindən olduğunu, bunun milli təhlükəsizlik, iqtisadi artım, davamlı inkişaf konsepsiyaları ilə bağlılığını diqqətə çatdıran Valdis Zatlers təhlükəsizliyin daim enerji axınlarından asılı olduğunu söyləyərək deyib: “Enerji təhlükəsizliyi müxtəlif çağırışlarla rastlaşa və enerji mənbələri təcavüzkarların əlinə keçə bilər. Bəzi ölkələr enerjidən xarici siyasətlərinin əsas hissəsi kimi istifadə edə bilərlər. Enerji təhlükəsizliyi, eyni zamanda, sülh naminə əməkdaşlıq üçün də əhəmiyyətli amil ola bilər. İstər istehsalçı, istərsə də istehlakçı ölkələr enerjidən asılıdır. Bu, enerji ətrafındakı əməkdaşlığı gücləndirmək üçün çox vacibdir”.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirən Valdis Zatlers deyib ki, Trans-Adriatik boru kəməri layihəsi enerji ehtiyatlarının şaxələndirilməsi üçün əhəmiyyətli layihədir. Bu layihə həqiqətən də yeni qaz bazarını yaradır.

Serbiyanın keçmiş Baş naziri Mirko Svetkoviç enerji ehtiyatları ilə bağlı müxtəlif ölkələrdə fərqli yanaşmaların olduğunu söyləyib. Ölkəsində enerji təhlükəsizliyinin ən yüksək yerdə olduğunu söyləyən keçmiş Baş nazir TAP boru kəmərinin Azərbaycan ilə Avropanı daha da yaxınlaşdıracağını bildirib, bəzi ölkələrdəki mövcud ekoloji problemlərdən danışıb.

Panel iclası maraqlı müzakirələrlə davam edib.

SOSİAL SİYASƏT

Bahar Muradova: “Azərbaycanda yürüdülən sosial siyasətin mərkəzində insan amili dayanır”

♦ **Azərbaycanda yürüdülən sosial siyasətin mərkəzində insan amili dayanır. Ölkəmizdə görülən bütün işlər Azərbaycan vətəndaşlarının rifahının yaxşılaşdırılması, onun daha gözəl gələcəyi, cəmiyyətimizin, dövlətimizin möhkəmləndirilməsinə xidmət edir.**

Bu fikirləri martın 15-də Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti barədə hesabatın müzakirəsi zamanı Milli Məclisin sədr müavini Bahar Muradova bildirib.

Bahar Muradova deyib ki, bütün bunlarla yanaşı, ötən il bir sıra problemlərin həlli üçün yeni imkanlar da yaradıldı. Bu isə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökuməti tərəfindən həyata keçirilən iqtisadi, sosial və digər sahələri əhatə edən islahatlar paketi ilə bağlıdır: “Hesab edirəm ki, 2015-ci ildən başlamış, 2016-cı ildə sürətlə davam etdirilən bu islahatlar mövcud olan problemlərin də bir çoxunun aradan qaldırılmasına imkan yaradacaq”.

Ölkəmizdə qoşunların təmas xəttində yaşayan insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan danışan Bahar Muradova qeyd edib ki, manatın devalvasiyası ilə yaranmış çətinliklərə baxmayaraq, Füzuli rayonu ərazisində tikiləcək fin qəsəbəsinin inşasına 48 milyon manat pul ayrılıb. Artıq hökumətin fondundan bu layihənin başladılması üçün 1 milyon 600 min manat ayrılıb və ilkin işlər tamamlanıb.

Milli Məclis sədrinin müavini qeyd edib ki, Azərbaycanda ordu quruculuğu ötən il uğurla davam etdirilib, hərbi intizam daha da möhkəmləndirilib. Büdcədən bu istiqamətdə ayrılmış 3,3 milyard manat ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasına sərf olunub. Bu da özünü düşmənin təxribatlarının qarşısının alınmasında açıq-aşkar göstərib. Bütün bunlar isə Azərbaycan xalqının ordumuza olan inamını daha da artırıb. “Bizim müdafiə təyinatlı silah-sursat istehsalı beynəlxalq sərgilərdə iştirak edir”, - deyə Bahar Muradova vurğulayıb.

NÜFUZLU RƏY

General-leytenant Yaşar Aydəmirov: “Seyran Ohanyan iki ağanın tək nökəri olmaq istəyir”

♦ **Ermənistanın həm Rusiyanın nəzarətindəki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) fəal üzvü olması, həm də NATO ilə yaxınlığı siyasi əxlaqsızlıqdan başqa bir şey deyil.**

General-leytenant Y.Aydəmirov

AZƏRTAC xəbər verir ki, bu fikri keçən həftə Brüsseldə NATO-nun mənzil-qərargahında “28+1” formatında Şimali Atlantika Şurası ilə Ermənistan arasında keçirilən toplantıda Seyran Ohanyanın görüşlərini şərh edən sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bildirib.

“Seyran Ohanyan kimdir? Onu yəqin ki, NATO-da da yaxşı tanıyırlar. Əgər bilmirlərsə, qısa xatırlatma yerinə düşər. Qarabağ savaşında dinc əhaliyə qarşı qəddarlığı, amansızlığı, qaniçənliyi ilə ad çıxarmış quldur dəstəsinin başçısı, terror yolu ilə Ermənistanda hakimiyyəti ələ keçirmiş və kriminal strukturların dəstəyinə arxalanaraq “dövləti” idarə edən şəxslərdən biridir. Ələ keçirdiyi hakimiyyəti zorla da olsa qoruyub saxlamaq üçün bütün vasitələrdən - yalan, iftira, şantaj, hətta əxlaqsızlıqdan belə çəkinmir. Odur ki, Seyran Ohanyanın eyni vaxtda KTMT və NATO-nun “qucağına” atılması onun kimi ünsürlər üçün adi haldır. Amma, necə deyərlər, onun “iki ağanın tək nökəri” olması cəhdləri heç bir fayda verməyəcək. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yeganə həlli yolu beynəlxalq ictimaiyyətin ədalətli mövqeyi, xalqımız və dövlətimizin iradəsi, Silahlı Qüvvələrimizin qüdrəti və gücündədir”, - deyə general-leytenant Y.Aydəmirov qeyd edib.

TƏSİS KONFRANSI

ABOEMDA-da həmkarlar təşkilatı yaradılıb

♦ **Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində (ABOEMDA) Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri Həmkarlar İttifaqının ilk təşkilatı yaradılıb.**

ABOEMDA-dan AZƏRTAC-a bildirilib ki, bu məqsədlə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində Elektroenergetika və Elektrotexnika Sənayesi işçiləri Həmkarlar İttifaqının ilk təşkilatının yaradılması ilə əlaqədar təsis konfransı keçirilib. Konfransda Elektroenergetika və Elektrotexnika Sənayesi işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Rafiq İldarov və ABOEMDA-nın sədri Akim Bədəlov iştirak ediblər.

A.Bədəlov əməkdaşların sosial məsələlərinin həllinə 1993-cü il fevralın 5-də ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyanın dəstək olacağına əminliyini bildirib. R.İldarov isə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyanın yaranması tarixi, ittifaqın fəaliyyətində könüllülük, üzvlərin bərabərliyi və şəffaflıq kimi əsas prinsipləri barədə söhbət açıb.

Öz işinə təşkilat komitəsinin yaradılması ilə başlayan konfransda açıq səsvermə yolu ilə sədr, müavin və komitə üzvləri seçilib.

ƏMƏKDAŞLIQ

Zurab Tkemaladze: “Azərbaycan Cənubi Qafqazda Gürcüstanın ən yaxın dostu və strateji tərəfdaşıdır”

♦ **“Azərbaycan Cənubi Qafqazda Gürcüstanın ən yaxın dostu və strateji tərəfdaşıdır. Biz təkcə qanunvericilik orqanları arasında deyil, bütün sahələrdə əlaqələrimizi inkişaf etdirir və daha da möhkəmləndiririk”. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Gürcüstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Zurab Tkemaladze söyləyib.**

O bildirib ki, dost və qardaş ölkələrimiz arasında əlaqələrin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza var: “Bizim çox mükəmməl qanunvericilik bazamız var. Bu, bizə münasibətlərimizi bütün sahələrdə inkişaf etdirməyə imkan verir. Dostluq qrupları parlamentlərarası əlaqələrin inkişafında mühüm rol oynayır. Azərbaycan Milli Məclisinə keçirilmiş seçkilərdən sonra dostluq qrupu yenidən formalaşıb. Yaxın vaxtlarda qarşılıqlı səfərlərimiz yenidən başlayacaq. Deputatlarımız beynəlxalq təşkilatlarda da bəzi məsələlərdə vahid mövqedən çıxış edirlər. Bu da bizim yaxın dostluğumuzun göstəricisidir”.

Parlamentdə həm də iqtisadiyyat komissiyasının sədri olan Zurab Tkemaladze deyib: “Cənubi Qafqazda Azərbaycanın və Gürcüstanın birgə əməkdaşlığı sahəsində həyata keçirilən irimiqyaslı layihələr bizim beynəlxalq nüfuzumuzun artmasında, eləcə də regionda mövqelərimizin möhkəmlənməsində mühüm rol oynayır. Biz Azərbaycanın Gürcüstana göstərdiyi köməyi unuda bilmərik. Məhz Azərbaycanın yaxın köməyi nəticəsində Gürcüstanın təbii qaza olan ehtiyacı demək olar ki, tam ödənilib. Bu həmçinin bizim müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Biz bunu yüksək qiymətləndiririk. Bunu unutmaq olmaz”.

energetika

AzərEnerji

Hörmətli energetiklər!

Sizi min illərin sınağından çıxaraq bu günümüzə qədər gəlib çıxan, milli adət-ənənələrimiz arasında tarixən özünəməxsus yer tutan əziz bayram –Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, xoş əhval-ruhiyyə arzulayıram.

Əsrlər boyu Azərbaycan xalqı bu bayramı sevərək qeyd etmiş, öz qəlbində yaşatmış və nəsildən-nəslə ötürmüşdür. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti Novruz bayramını çox geniş şəkildə - rəsmi bayram kimi qeyd edir.

Milli dəyərlərə önəm verən Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş islahatlar nəticəsində ötən əsrin 90-cı illərinin ortalarından Azərbaycan iqtisadiyyatında başlanan inkişaf dinamikası Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yeni dövrün tələblərinə uyğun yürütdüyü iqtisadi siyasət sayəsində son 12 ildə daha sürətli olmuşdur. Belə ki, "Əsrin müqaviləsi" çərçivəsində neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın şaxələndirilməsinə, o cümlədən qeyri-neft sektorunun inkişafına yönəldilməsinin nəticəsidir ki, qlobal maliyyə böhranının dünyanın əksər ölkələrinə ciddi təsir göstərməsinə baxmayaraq, Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişaf prosesi davam edir, nəzərdə tutulmuş sosial proqramlar uğurla icra olunur. O cümlədən, ölkəmizdə yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun yenidən qurulması istiqamətində aparılan genişmiqyaslı islahatlar nəticəsində respublikamızın elektrik enerjisi təhlükəsizliyi təmin edilmiş, ölkənin elektrik enerjisinə tələbatı tam ödənilməklə ixrac potensialı daha da artmışdır. Bu da təbiətin dirçəlməsi və yeniləşməsi ilə həmahəng olub hər birimizdə nikbin ovqat yaradır, sabahkı günə dərin inam aşılayır.

Ümidvaram ki, qazanılmış nailiyyətlərin daha da inkişaf etdirilməsi naminə bundan sonra da bütün səy və bacarığınızı sərf edəcək, qarşıya qoyduğumuz vəzifələri vaxtında və yüksək səviyyədə yerinə yetirəcəksiniz. Sizə çətin, məsuliyyətli və şərəfli işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Əziz bayram günündə hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

Etibar Pirverdiyev,
"Azərenerji" ASC-nin prezidenti

Əməkdaşlıq məsələləri müzakirə edilib

♦ **Bu il fevral ayında Azərbaycan Respublikasının energetika naziri Natiq Əliyev ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanı qəbul edib.**

Energetika Nazirliyinin rəsmi internet saytının (*http://www.minenergy.gov.az*) bu barədə yaydığı məlumata görə, görüşdə regional, Avropa və qlobal səviyyədə enerji təhlükəsizliyini təmin etmək məqsədilə ABŞ-ın etibarlı enerji istehsalçısı və təchizatçısı kimi Azərbaycanla əməkdaşlığı məsələləri müzakirə edilib. Neftin qiymətinin kəskin düşməsi ilə əlaqədar dünya enerji bazarında yaranmış son vəziyyət, hasilatın "dondurulması" təşəbbüsü ətrafında aparılan danışıqlar və Azərbaycan-İran enerji əməkdaşlığının hazırkı səviyyəsinə dair fikir mübadiləsi aparılıb. Energetika naziri Natiq Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında" Sazişin imzalanmasını Azərbaycanla İranın enerji sahəsində əməkdaşlığına töhfə kimi qiymətləndirib.

ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta isə "Cənub Qaz Dəhlizi" layihəsinin gedişatı ilə maraqlanıb. Natiq Əliyev "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı işlərin qrafikə uyğun aparıldığını və Azərbaycanın layihə ilə bağlı öhdəlikləri yerinə yetirdiyini diqqətə çatdırıb.

Stansiya dispetçer qrafikinə uyğun fəaliyyət göstərir

♦ **Ulu Öndərin müstəqil Azərbaycan dövlətinin rəhbərliyinə gəlməsindən sonra bütün sahələrdə olduğu kimi, elektrik enerjisi sistemində də kəskin dönüş yarandı. Bu gün enerjisistemdə müstəsna əhəmiyyətinə görə seçilən, Bakı şəhəri və Bakıətrafı qəsəbələrin, ümumilikdə isə Abşeron yarımadasının elektrik enerjisi təchizatında mühüm rol oynayan "Şimal" Elektrik Stansiyası da ikinci həyatına qədəm qoydu.**

«Şimal» ES-də əsas və köməkçi avadanlıqların dayanıqlı və qənaətli işləməsi üçün müvafiq tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir. Nəticədə ötən dövrlərdə olduğu kimi, 2015-ci ildə və cari ilin iki ayında texniki iqtisadi göstəricilər yüksək olmuşdur. Stansiya dispetçer qrafikinə uyğun normal iş rejimində fəaliyyət göstərir.

"Azərenerji" ASC-nin Elektrik Enerjisinin İstehsalı İdarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumata görə, «Şimal» ES-də cari ilin fevral ayında 217,7 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilmişdir.

Qeyd edək ki, 2016-cı ilin ötən iki ayı ərzində isə burada 452 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunmuşdur.

Yeri gəlmişkən, 2015-ci il ərzində isə stansiyada elektrik enerjisi istehsalı 2 milyard 197,7 milyon kilovat-saatdan artıq olmuşdur.

Onu da qeyd edək ki, avadanlıqların iş səmərəliliyinin artırılması, enerjinin ötürülməsi sisteminin dayanıqlı, sabit işləməsinin və istismar səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində elektrik enerji istehsalının digər texniki göstəricilərində də yüksək nəticələr əldə edilmişdir.

Mənbə bunu uğurla həyata keçirilmiş məqsədyönlü tədbirlərin məntiqi nəticəsi kimi qiymətləndirərək onu da bildirdi ki, mövsümə hazırlıq üzrə nəzərdə tutulmuş işlər və digər təşkilatı tədbirlər qrafik üzrə davam etdirilir.

Onu da qeyd etmək yerinə düşərdi ki, 400 MVt-lik enerji blokunun idarəetmə sxeminin rele təsərrüfatına baxış keçirilmiş və aşkar edilmiş çatışmazlıq aradan qaldırılmışdır.

Mənbə onu da bildirdi ki, digər müəssisələr kimi, burada da yanğın təhlükəsizliyi məsələsi daim diqqət mərkəzindədir. Belə ki, yanğın təhlükəsizliyinin təmin edilməsi üçün yanğın su çəni, nasos qurğusu, su kəməri şəbəkəsi və digər avadanlıqlar yoxlanılmış, aşkar edilmiş qüsurlar aradan qaldırılmış və daimi nəzarətdə saxlanılır. Eyni zamanda, təzyiqi düşmüş yanğın od söndürənlər yenisi ilə əvəzlənmişdir. Bütün bunlarla yanaşı, işçilərə əksqəza təlimləri keçirilir.

Xatırladaq ki, Bakı İEM-də hər birinin gücü 53,5 MVt olan iki ədəd qaz-turbin qurğusu fəaliyyət göstərir.

1,9 milyard kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilib

♦ **Cari ilin fevral ayında ölkə enerjisistemində 1,9 milyard kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilmişdir.**

Bu barədə "Azərenerji" ASC-nin Mətbuat xidmətinə Səhmdar Cəmiyyətin Mərkəzi Dispetçer İdarəsindən məlumat verilib.

Bununla yanaşı, ay ərzində ölkə enerji sisteminin əlaqəsi olan qonşu dövlətlər ilə elektrik enerjisi mübadiləsi davam etdirilmişdir.

Mənbənin bildirdiyi digər bir məlumata görə, cari ilin ötən 2 ayı ərzində isə 4 milyard kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Avadanlıqlara texniki qulluq göstərilir

♦ **Hazırda alternativ və bərpa olunan enerji mənbələrindən geniş istifadə edilməsi məsələsi bütün dünyanın diqqət mərkəzindədir. Bu məsələ qlobal ekoloji problemlərin aradan qaldırılması, ətraf mühitin qorunması baxımından xüsusilə aktualdır. Ümumiyyətlə, respublika istehlakçılarının elektrik enerjisi ilə təmin edilməsində, o cümlədən pik güclər baxımından ölkədə fəaliyyət göstərən su elektrik stansiyalarının (SES) rolu əvəzsizdir. Bu baxımdan, həmin bu obyektlərə diqqətin artırılması və onların iş rejiminin günün tələblərinə cavab verə biləcək səviyyədə təmin edilməsi vacib amil hesab edilir. Belə obyektlərdən biri də qərb bölgəsinin enerji təchizatında, eyni zamanda, pik güclərinin artırılmasında özünəməxsus payı və rolu olan Şəmkir Su Elektrik Stansiyaları Silsiləsidir.**

"Azərenerji" ASC-nin Enerjinin İstehsalı İdarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumata görə, Şəmkir SES Silsiləsinin kollektivi cari ilin ötən iki ayı ərzində 119,7 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal etmişlər. Qeyd edilən həcmdən istehsal olunan enerjinin 87 milyon kolovat-saatdan çoxu Şəmkir SES-in, 32,7 milyon kilovat-saata yaxını isə Yenikənd SES-in payına düşür.

Qeyd edək ki, şəmkirli energetiklər cari ilin fevral ayında da məhsuldar işləmişlər. Şəmkir SES respublikanın enerji sisteminə 46,2 milyon kilovat-saatdan artıq, Yenikənd SES isə 17,5 milyon kilovat-saata yaxın elektrik enerjisi ötürmüşdür.

"Digər enerji obyektləri kimi, adıçəkilən obyektdə də iş rejimi günün tələblərinə cavab verə biləcək səviyyədədir. Hal-hazırda elektrik stansiyası dispetçer qrafikinə uyğun olaraq fəaliyyət göstərir", – deyən mənbə onu da bildirdi ki, avadanlıqların iş səmərəliliyinin artırılması, enerjinin ötürülməsi sisteminin dayanıqlı, sabit işləməsinin və istismar səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində elektrik enerjisi istehsalının digər texniki göstəricilərində də yüksək nəticələr əldə edilmişdir.

Onu da qeyd etmək yerinə düşərdi ki, silsilə üzrə 2015-ci il ərzində 934 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilmişdir ki, bunun da 655,3 milyon kilovat-saatdan çoxu Şəmkir SES-in, 278,7 milyon kilovat-saatdan artığı isə Yenikənd SES-in payına düşür.

Nəzərdə tutulmuş təmir-bərpa işləri barədə məlumat verən mənbə onu da qeyd etdi ki, hər iki stansiya üzrə təmir-bərpa işləri «Azərenerji» ASC-nin təsdiq etdiyi plan-qrafikləri üzrə aparılır. Bütün qurğu və avadanlıqlar saz vəziyyətdədir. Hazırda yaz selsularının qəbulu və ötürülməsinə hazırlıq işləri davam etdirilir.

Yeri gəlmişkən, avadanlıqlara texniki xidmət hər iki stansiyada işbilən və bacarıqlı mütəxəssislərimiz tərəfindən aparılır. Xidmətlər yerli və zavod təlimatlarının tələblərində göstərilmiş normada icra olunur. Qurğu və avadanlıqlar normal işləyir, işçi heyəti tərəfindən hər iki stansiyanın fəaliyyəti nəzarətdə saxlanılır.

Onu da qeyd edək ki, digər enerji obyektlərində olduğu kimi, burada da yanğın təhlükəsi olan bütün yerlər diqqətdə saxlanılır və onlar təlimata uyğun olaraq yanğına qarşı ləvazimatlarla tamamilə təmin olunmuşdur.

Xatırladaq ki, silsiləyə Şəmkir və Yenikənd SES-ləri daxildir.

ENERGETİKA MƏNZƏRƏLƏRİ

Qrafik üzrə nəzərdə tutulan işlər başa çatıb

♦ **Dövlət müstəqilliyinin bərpasından sonra iqtisadiyyatımızın elektrik enerjisi təminatının möhkəmləndirilməsi istiqamətində yenidən qurularaq istismara verilmiş elektrik stansiyalarından biri də Bakı İstilik-Elektrik Mərkəzidir. Avadanlıqların istismarı və işlərin mövcud normativ tələblər əsasında aparılması stansiyanın dayanıqlığını daha da artırır. Bu da öz növbəsində texniki iqtisadi göstəricilərin daha da yaxşılaşmasına kömək edir. Hazırda stansiya dispetçer qrafikinə uyğun olaraq fəaliyyət göstərir.**

"Azərenerji" ASC-nin Enerjinin İstehsalı İdarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumata görə, stansiyada cari ilin yanvar ayında 46,9 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilmişdir.

Qeyd edək ki, müəssisədə 2015-ci il ərzində isə 339,4 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Yeri gəlmişkən, avadanlıqların iş səmərəliliyinin artırılması, enerjinin ötürülməsi sisteminin dayanıqlı, sabit işləməsi və istismar səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində istər ötən il ərzində, istərsə də cari ilin yanvar ayında elektrik enerjisi istehsalının digər texniki göstəricilərində də yüksək nəticələr əldə edilmişdir.

Mənbədən stansiyada son üç ay ərzində həyata keçirilmiş təmir işləri ilə bağlı əldə etdiyimiz məlumata görə, 2 saylı qaz-turbin qurğusunda aparılan əsaslı təmir işləri, 1 saylı qaz-turbin qurğusunun isə təftişi başa çatdırılmışdır. Eyni zamanda, qaz-turbin qurğularının avadanlıqlarında, mazut təsərrüfatının su, buxar və yanğın xətlərində, kompressor təsərrüfatında, dəniz suyu xətlərində müxtəlif təyinatlı təmir işləri həyata keçirilmişdir. Bütün bunlarla yanaşı, 110 kV-lik yarımstansiyanın ərazisində müxtəlif təyinatlı təmir işləri aparılmış və transformator təftiş edilmişdir. Eyni zamanda, elektrik mühərriklərində və digər köməkçi avadanlıqlarda da təmir işləri yerinə yetirilmişdir. Aparılan işlərin siyahısı ümumilikdə kifayət qədər zəngindir.

Mənbəyə istinadən onu da qeyd edək ki, digər müəssisələr kimi, burada da yanğın təhlükəsizliyi məsələsi daim diqqət mərkəzindədir. Belə ki, yanğın təhlükəsizliyinin təmin edilməsi üçün yanğın su çəni, nasos qurğusu, su kəməri şəbəkəsi və digər avadanlıqlar yoxlanılmış, aşkar edilmiş qüsurlar aradan qaldırılmış və daimi nəzarətdə saxlanılır. Eyni zamanda, təzyiqi düşmüş yanğın od söndürənlər yenisi ilə əvəzlənmişdir. Bütün bunlarla yanaşı, işçilərə əksqəza təlimləri keçirilir.

Xatırladaq ki, Bakı İEM-də hər birinin gücü 53,5 MVt olan iki ədəd qaz-turbin qurğusu fəaliyyət göstərir.

"AZƏRBAYCAN" İES-dən XƏBƏRLƏR

İki ayın nəticələri

♦ **Respublikamızda elektrik enerjisi istehsalında mühüm yeri olan «Azərbaycan» İES 2016-cı ilin ilk iki ayının proqnozlarını yerinə yetirib.**

Stansiya kollektivi yanvar ayında 604,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edərək enerjisistemə ötürüblər. Onlar fevral ayında da Mərkəzi Dispetçer İdarəsinin göstərişlərinə əməl ediblər. Nəzərdə tutulan 490 milyon kilovat-saatdan çox enerji istehsal olunub ki, bu da respublikamızın iqtisadiyyatı və əhali sektoru üçün xüsusi əhəmiyyət daşıyıb.

Stansiyada sutka ərzində, dispetçer tapşırıqlarına uyğun olaraq, 16-17 milyon kilovat-saat enerji istehsal olunur.

Mülki müdafiəyə həsr edilmiş toplantı keçirilib

♦ **«Azərbaycan» İES-də Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş toplantı keçirilib. Toplantıda stansiyanın direktoru Gülağa Bəşirov çıxış edərək mülki müdafiənin əhəmiyyətindən, ölkəmizdə bu sahədə görülən irimiqyaslı işlərdən danışıb, müəssisənin spesifik xüsusiyyətləri ilə bağlı Mülki Müdafiə Qərargahının üzərinə düşən vəzifələrdən, onların yerinə yetirilməsinin vacibliyindən söz açıb.**

Sonra stansiyanın Mülki Müdafiə Qərargahının rəisi Adil İsmayılov, 68 saylı Hərbiləşdirilmiş Yanğın Hissəsinin rəis müavini polkovnik-leytenant Vaqif Fərəcov, 2 nömrəli şəhər poliklinikasının həkimi Kəmalə Məmmədova və başqaları mülki müdafiə məsələləri ilə bağlı müxtəlif mövzularda çıxış ediblər.

Sonda toplantı iştirakçıları obyektin rabitə şöbəsində quraşdırılan avadanlıqlara baxış keçirdilər.

Yusif ƏLƏKBƏROV

Xaçmaz ES: texniki-iqtisadi göstəricilər qənaətbəxşdir

♦ **Müasir texnologiyaların tətbiq edildiyi generasiya mənbələrindən biri olan Xaçmaz Elektrik Stansiyasının respublikanın şimal bölgəsinin elektrik enerjisi təchizatının yaxşılaşdırılmasında böyük rolu var.**

Stansiyanın işə qoşulması bölgənin elektrik enerjisi təchizatının kəmiyyət və keyfiyyətcə yaxşılaşmasında, eyni zamanda, sistemin dayanıqlığının artırılmasında əhəmiyyətli rol oynayır. Stansiyada texniki istismar səviyyəsinin yüksəldilməsi, avadanlıqların təhlükəsiz və qənaətli işləməsini təmin etmək məqsədi ilə nəzərdə tutulmuş tədbirlər müntəzəm olaraq yerinə yetirilir, o cümlədən vaxtlı-vaxtında texniki baxışlar keçirilir və zəruri operativ tədbirlər görülür. Məhz onun nəticəsidir ki, stansiyada aqreqatların hamısı saz vəziyyətdədir. Hazırda aqreqatlar dispetçer qrafikinə uyğun olaraq fəaliyyət göstərir.

"Azərenerji" ASC-nin Enerjinin İstehsalı İdarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumata görə, Xaçmaz elektrik stansiyasında cari ilin ötən iki ayı ərzində 43,1 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Qeyd edək ki, 2016-cı ilin fevral ayında isə burada 20,9 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunmuşdur.

Onu da qeyd edək ki, avadanlıqların iş səmərəliliyinin artırılması, enerjinin ötürülməsi sisteminin dayanıqlı, sabit işləməsinin və istismar səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində cari ilin ötən iki ayı ərzində də elektrik stansiyasının digər texniki iqtisadi göstəriciləri qənaətbəxşdir.

Onu da qeyd etmək yerinə düşərdi ki, 2015-ci il ərzində stansiyada elektrik enerjisi istehsalının həcmi 282,2 milyon kilovat-saatdan artıq olmuşdur.

Mənbədən əldə etdiyimiz digər bir məlumata görə, son üç ay ərzində stansiyada mühərrik-generatorlarda təlimata müvafiq növbəti istismar həddinə uyğun texniki qulluq işləri həyata keçirilmiş, o cümlədən onların köməkçi avadanlıqlarında müxtəlif təyinatlı təmir işləri aparılmışdır.

Yeri gəlmişkən, digər enerji obyektlərində olduğu kimi, burada da yanğın təhlükəsizliyi məsələsi daim diqqət mərkəzindədir. Belə ki, sexlər, inzibati bina və yardımçı binalarda yanğın təhlükəsizliyi vəziyyətinə baxış keçirilmiş, o cümlədən yanğınsöndürmə avadanlıqları təftiş edilmiş, ərazi yanğın törədə biləcək tullantılardan təmizlənmişdir. Eyni zamanda, yanğınsöndürmə su sisteminin boruları və onun armaturları da yoxlanılmış, aşkar edilmiş qüsurlar aradan qaldırılmışdır.

Sonda onu da qeyd edək ki, əməliyyat heyətinin işinə nəzarəti gücləndirmək, onların bilik səviyyəsini artırmaq məqsədilə bütün növ təlimatlar keçirilmiş, bilik yoxlamaları aparılmış və əksqəza məşqləri keçirilmişdir.

Xatırladaq ki, ümumi gücü 87 MVt olan bu elektrik stansiyası 10 aqreqatdan ibarətdir.

Materialları hazırladı:
Ə.Baxşəliyev

21 MART – BEYNƏLXALQ NOVRUZ GÜNÜ

Novruz – milli mənəvi dəyərlərin əbədiyaşarlıq rəmzi

♦ Xalqımızın əsrlər boyu qoruyaraq yaşatdığı, gələcək nəsillərə ötürdüyü Novruz bayramı dünyanın yaranma və yaşam sirlərindən tutmuş, gələcəyə, xoşbəxtliyə ümidi özündə əks etdirir. Milli mənəvi dəyərlərimizin əbədiyaşarlıq rəmzi olan Novruz yeni gün, yeni həyat mənasını daşımaqla həm də azərbaycanlıların Yeni ilidir. Bəşəriyyətin ən qədim mərasim şənliklərindən biri olan Novruzda həyat yenidən canlanır, torpaq qış yuxusundan oyanır, bitkilər yerdən baş qaldırır, ağaclar çiçəklənir, günəşin istisi artır, gecə ilə gündüz bərabərləşir və beləliklə, yeni həyat başlayır.

Mənəvi dəyərlərimizi, qədim adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi üçün sağlam təməl yaradıb. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Xalqımızın zəngin maddi və mənəvi dəyərlərinin mühüm hissəsini özündə ehtiva edən Novruz qədim mədəni kök və qaynaqlara malikdir. Buna görə də bu bayram quruluşca mürəkkəb, məzmunca isə dərin və çox əhatəlidir.

Novruz hərfi mənada yeni gün deməkdir, amma ifadə etdiyi mərasim semantikasına görə, keçidin bitməsi və yeni nizamın başlanğıcı anlamına gəlir. Vaxtilə Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu və s. də deyilib.

Əsrlərin sınağından çıxan Novruz haqqında tarixi mənbələr kifayət qədər məlumat verir. Eyni zamanda, Biruni Əbu Reyhanın, Kaşğarlı Mahmudun, Balasaqunlu Yusif Has Hacibin, Ömər Xəyyamın, Nizamülmülkün, Nizami Gəncəvinin əsərlərində də Novruz haqqında məlumatlar var. Bu mütəfəkkirlərin əsərlərində təkcə bayramın təbiətlə və onun qanunauyğunluqları ilə əlaqəsindən deyil, həm də onunla bağlı mərasimlər, sınamalar və rituallar haqqında da bəhs edilir. Məsələn, Biruni Əbu Reyhanın “Asarul Baqiye” əsərində, Ömər Xəyyamın “Novruzname”sində göstərilir ki, Novruzda yerə su səpərmişlər, yaxınlara hədiyyə verərmişlər, yelləncəkdə yellənərmişlər, şirniyyat paylayarmışlar, yeddiillik məhsulu müəyyənləşdirərmişlər, ritual yuyunması, çimməsi və digər mərasimlər icra edilərmiş. Bayram günündə süfrəyə buğda, arpa, darı, qarğıdalı, noxud, mərcimək, düyü, küncüt və ya lobya unundan hazırlanmış çeşidli çörəklər düzərmişlər.

Bəzi tarixi məlumatlarda Novruz bayramının bir ay davam etməsi qeyd olunur. Bayram şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olardı. Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanırmış. Bu bayram o qədər şad və şən bir bayram olub ki, həmin günlərdə təkcə təmtəraqlı tənənələr deyil, eyni zamanda, xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, bir-birinə qarşılıqlı inam və simpatiya ifadə edilərək ümumbəşəri dəyərlər üstün tutulmuşdur.

Novruzun tərkibində arxaik ritual elementlərinin - səməni cücərtmə, tonqal qalama, tonqal üstündən tullanma, qulaq falı və ya qapı dinləmə, yumurta boyama və yumurta döyüşmə, qurşaq atdı, kosa-kosa, kəndirbaz oyunu, deyimlər, nəğmələr və s. xüsusi məna kəsb edir. Bunların hər biri müəyyən bir elementlə simvolizə olunur. Məsələn, təbiətlə bağlı olan və insanların yaşayışında mühüm əhəmiyyət daşıyan yaz mövsümü ilə başlanan yaşıllanmanı “səməni” təmsil etməkdədir. Bu element təbiətin dirilməsini bitki səviyyəsində simvolizə edir. Bu kompleksin içində ən mərkəzi mövqeyi “tonqal” tutur.

Novruz bayramı ərəfəsində bayram hazırlıqları başlanır. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, yeni paltarların alınması, bayram bazarlığı, bayram yeməklərinin hazırlanması və s. daxildir. Bayramda müqəddəs yerlər ziyarət edilir, qohumlara baş çəkilir, bayramlaşılır, küsülülər barışır, kasıblara yardım edilir, bayram payı paylanır və s. Təmizlənməmiş həyət-baca, köhnə paltar, kasıblıq və aclıq xaosu simvolizə edir. Küsülülük, kommunikativ böhran sosial xaosun ifadəsidir. Təmizlik, təzə paltar, yeməklər, xaosun natəmizlik, köhnəlik, aclıq kimi formalarını aradan qaldırır və onları yeni nizamla əvəz edir. Küsülülük barışla əvəzlənəndə sosial harmoniya bərpa olunur.

Yumurta döyüşdürülməsi iki dünyanın - qışla yazın, soyuqla istinin, xaosla-kosmosun mübarizəsini nümayiş etdirməkdir. “Toxum cücərtmək” və ya “səməni qoymaq” da bir şəkildə təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. “Qulaq falı” və ya “qapı pusmaq” yeniləşmənin məlumat səviyyəsini əks etdirir.

Novruza aid olan bayram adətlərindən biri də müxtəlif şəkildə adlandırılan torba atmaqdır. Novruzla bağlı orta əsrlərə aid yazılı qaynaqlarda bu adətlərin zərdüştlük dönəmində mövcud olduğu və onun xüsusi icraçılar – Zərdüşt kahinləri tərəfindən yerinə yetirildiyi haqqında məlumat verilir.

Sonrakı dövrlərdə “torba atmaq”, “qurşaq atmaq” və ya “şal sallamaq”la əvəzlənib. Əlbəttə, burada məişət mədəniyyətindəki dəyişikliklər öz təsirlərini göstərib. Ən yeni dövrün “torba atmaq” mədəniyyətində “dəsmal atmaq” və “papaq atmaq” kimi yeni vasitələrdən istifadə edildiyi müşahidə olunmaqdadır.

Xalqımızın adətinə görə bayram günü süfrə dadlı təamlarla doldurulur. Bayram süfrəsini hələ axır çərşənbədən hazırlamağa başlayırlar. Bunun üçün müxtəlif şirniyyatlar - şəkərbura, paxlava, şəkərçörəyi və s. bişirilir. Həmçinin süfrəyə düzmək üçün noğul, nabat, püstə, badam, tut qurusu, kişmiş, fındıq, qoz, boyanmış yumurta, alma qurusu, iydə və s. çərəzlər tədarük edilir.

Bayram günü bu şirniyyat və çərəzlərdən başqa, masaya 7 cür nemət qoyulur. Bunlar su (təmizlik), güzgü (paklıq mənasında), səməni (təbiətin oyanması), balıq (çevikliyin rəmzi), alma (xoş ətirli olduğu üçün), halva (şirinlik) və fincanın içərisinə qoyulan qızıldır (bu da var-dövlət rəmzidir). Bayram süfrəsini rənglənmiş yumurtalar da bəzəyir ki, bu da canlı aləmin yaranışına işarədir. Yumurta adətən qırmızı rənglə boyanır. Qırmızı rəng bəşəriyyətin şadyanalıq içində yaşamaq istəyinin təcəssümüdür.

Bayram süfrəsinin ortasına qırağı şamlarla bəzədilmiş səməni qoyulması da qədim adətlərdəndir. Eyni zamanda, səmənidən həm xörək, həm də halva bişirirlər. Səməni həyatın, yaşamın simvolu sayılır. Hətta belə bir deyim var ki, səməni cücərən zaman evə pis adam gələrsə, o bitmir. İnanca görə, səmənininin yanında pis söz danışmaq olmaz. Bayram şirniyyatı olan şəkərbura da yaşam simvollarından biridir. Novruz süfrəsi təkcə yemək üçün nəzərdə tutulmur. Eyni zamanda ondan pay da verilir ki, bu da Novruzun dərin fəlsəfəsindən xəbər verir.

Bu əziz bayram münasibətilə bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər bir ailəyə bahar təraveti, firavanlıq və bol-bol səadət arzulayırıq.

Sadıq QARAYEV

TƏHSİL

Şagirdlər Novruz bayramında neçə gün tətil edəcəklər?

♦ Novruz bayramı ərəfəsində Azərbaycanın ümumtəhsil müəssisələrində şagirdlər üçün nəzərdə tutulan tətil günlərinin sayı açıqlanıb.

Təhsil Nazirliyindən “Report”un sorğusuna cavab olaraq bildirilib ki, bayramın ilk günü bazar gününə təsadüf etdiyindən, bayramdan əvvəlki həftənin dərs günlərində dəyişiklik olmayacaq.

Belə ki, 6 günlük iş həftəsi ilə işləyən ümumtəhsil məktəblərində mart ayının 19-u, 5 günlük iş həftəsi ilə işləyən məktəblərdə isə mart ayının 18-i dərs günüdür.

“Mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq, 20 mart tarixinin bazar gününə təsadüf etməsi ilə əlaqədar martın 25-i iş günü hesab olunmur. Bununla əlaqədar, bayramdan sonra 6 günlük iş həftəsi ilə işləyən ümumtəhsil məktəblərində martın 26-sı, 5 günlük iş həftəsi ilə işləyən məktəblərdə isə martın 28-i dərs günü olacaq”, – nazirlikdən bildirilib.

Qeyd edək ki, Nazirlər Kabinetinin “2016-cı ildə Novruz, Ramazan, Qurban bayramları haqqında” 24 dekabr 2015-ci il tarixli 402 nömrəli Qərarına əsasən, bu il 20, 21, 22, 23, 24 mart Novruz bayramı günləri kimi təsbit olunub və həmin günlər iş günü hesab edilmir.

Xatırladaq ki, 2015-2016-cı tədris ilində Azərbaycanın ümumi təhsil müəssisələrində dərslər iyunun 14-də başa çatacaq. Dərs ili müddətində 5 gün payız tətili (16-20 noyabr), 5 gün qış tətili (27-31 yanvar) və ibtidai siniflər üçün isə 5 gün (1-5 may) əlavə yaz tətili müəyyən edilib.

ADƏT-ƏNƏNƏ

Bakıda möhtəşəm ilaxır çərşənbə

♦ Qədim zamanlardan başlayaraq Novruz bayramı müxtəlif ayin və mərasimlərin, xüsusilə 4 çərşənbə axşamının sehrindən, sevincindən, arzu və ümidlərindən keçib gəlib. Həyatın, varlığın əsası sayılan 4 ünsürün – su, od, yel və torpağın adı ilə bağlanan bu çərşənbələr özünəməxsus mifoloji və etnoqrafik mahiyyəti ilə seçilib, həmişə xüsusi bayram olaraq qeyd olunub.

AZƏRTAC xəbər verir ki, martın 15-də ilaxır çərşənbə münasibətilə Mərkəzi Parkda Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Televiziyasının birgə təşkilatçılığı ilə bayram proqramı təqdim edilib.

Torpağımızın əbədi od saxlancı Atəşgahdan çaparlar dəstəsinin müşayiəti ilə el ağsaqqalı Dədə Qorqudun və Bahar qızının gətirdiyi odla Novruz tonqalı yandırılıb.

Sonra söz Dədə Qorquda və Bahar qızına verilib, onlar ilaxır çərşənbə münasibətilə xalqımızı təbrik ediblər.

Gecədə Novruz personajları - Kosa və Keçəlin maraqlı söhbəti, kəndirbaz və pəhləvanların məharəti, milli geyimli oğlan və qızların rəqsi, incəsənət ustalarının ifaları bayram əhval-ruhiyyəsini daha da coşdurub.

Paytaxt sakinləri və qonaqların maraqla izlədikləri bayram konsertinin sonunda Bakının bahar axşamının səsəsi möhtəşəm atəşfəşanlığın əlvan rənglərinə boyanıb.

DÜNYADAN SORAQLAR

YAPONİYA

Dünyada ən böyük üzən stansiya işə salınıb

♦ Yaponiyanın «Smart Enerqy» şirkəti Saytama prefekturasının ərazisində, Kavadzima şəhərində 130 min kvadratmetr sahədə süni kənd təsərrüfatı su hövzəsi üzərində günəş elektrik stansiyasının (GES) tikintisini başa çatdırıb.

Stansiyanın gücü 7,5 MVt-yə bərabərdir. Onun inşasında Çinin «Jinqli» korporasiyasının istehsalı olan 27456 monokristal günəş panelindən istifadə edilib. Layihəyə görə stansiya ildə 8,3 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəkdir ki, bu da 2300 ev təsərrüfatının ehtiyaclarını ödəmək üçün kifayətdir. Obyektin tikintisinə ayrılan investisiya 3 milyard yenə (24,8 milyon dollara) bərabərdir.

Bu, Yaponiyada birinci üzən günəş elektrik stansiyası deyildir. 2015-ci ilin iyul ayında Kato şəhərində (Xyoqo prefekturası) ildə 3,3 milyon kilovat-saat enerji istehsal etməyə qadir olan nəhəng günəş elektrik stansiyası işə salınmışdı. Hazırda «TC-Lease» və «Kyocera TCL Solar» şirkətləri 13,7 MVt gücündə ən böyük üzən günəş elektrik stansiyasının tikintisinə başlayıblar. Bu stansiya hər il 16 milyon kilovat-saatdan çox elektrik enerjisi hasil edəcək. Stansiyanı 2018-ci ildə istismara vermək nəzərdə tutulub.

Üzən günəş elektrik stansiyalarının qurudakı stansiyalardan bir sıra üstünlükləri var. GES-lər daha yaxşı soyudulması və daha az tozlu olması hesabına yüksək faydalı iş əmsalına malik olmaqla yanaşı, həm də seysmik hadisələrə daha dözümlüdür.

LİTVA

İqnalina AES lazımsız əmlakı satır

♦ Ötən il İqnalina AES kommersiya fəaliyyəti və 51 hərrac yolu ilə lazımsız əmlakı sataraq 2,058 milyon avro əldə edib.

Hərraclarda 4665 ton müxtəlif metal və avadanlıq satılıb ki, bu da 1,84 milyon avro qazanmağa imkan verib.

«Auksionlarda stansiyanın istismardan çıxarılması və detontaj işləri layihələrinin həyata keçirilməsi zamanı toplanan və müəssisəyə gərək olmayan avadanlıq və əmlak satılıb. 2010-cu ildən sonra 30 min tondan çox lazımsız avadanlıq sökülüb, onların da çox hissəsi yoxlanılaraq hərraca çıxarılıb. Bu cür satışlar nəinki təkcə müəssisəyə əlavə gəlir verir, həm də utilləşdirilməli və anbarlara daşınmalı olan tullantıların miqdarının azalmasına imkan yaradır», - deyə İqnalina Atom Elektrik Stansiyasının (İAES) baş direktoru Daryus Yanilyaviçyus bildirib.

Hərraclarda satışdan əlavə İqnalina AES digər kommersiya fəaliyyətindən də gəlir götürür. 2015-ci ildə müəssisə lazımsız binalarının icarəyə verilməsindən 0,03 milyon avro, dəmiryolu daşımalarından 0,07 milyon avro və digər xidmətlərdən 0,12 milyon avro qazanc əldə edib.

Hazırda əldə olunan əlavə vəsait stansiyanın istismardan çıxarılması işlərinin maliyyələşdirilməsinə sərf edilir.

İAES-in 2010-cu ildən başlayaraq istismardan çıxarılmassı dövründə 10 milyon avro əldə edib.

İNDONEZİYA

Sınaq reaktorunun layihəsi hazırlanıb

♦ «İ.İ.Afrikantov adına maşınqayırma sınaq konstruktor bürosu» (MSKB) SC («Rosatom»un maşınqayırma divizionu «Atomenerqomaş»a daxildir) İndoneziya Respublikası üçün yüksəktemperaturlu qazlasoyudulan sınaq reaktorunun konseptual layihəsinin materiallarını işləyib hazırlayıb.

Yüksəktemperaturlu qazlasoyudulan reaktorlu (YTQR) atom stansiyasının konseptual layihəsinin hazırlanmasını nəzərdə tutan birinci mərhələnin yekunlarına görə İndoneziya tərəfi ikinci mərhələnin – RDU reaktor qurğulu atom stansiyasının bilavasitə tikintinin reallaşdırılması ilə əlaqədar tender prosedurları keçirmək barədə qərar qəbul etməli idi. Reaktorlu stansiya layihəsinin yüksəktemperaturlu qazlasoyudulan reaktorlar (YTQR) texnologiyası bazasında hazırlanması İndoneziyanın nüvə proqramı çərçivəsində həyata keçirilir

Ötən ilin aprel ayında İndoneziyanın atom enerjisi üzrə milli agentliyi bu ölkənin iki şirkəti və Almaniyanın bir şirkətindən ibarət konsorsium elan edib. Rusiyanın şirkətlər qrupu tərəfindən «Afrikantov MSKB» SC reaktor qurğusunun baş konstruktoru təyin edilib.

FRANSA

1000 kilometr uzunluğunda yola günəş panelləri düzüləcək

♦ Bu cür layihə 5 il üçün nəzərdə tutulub. Fransanın ekologiya və energetika naziri Seqolen Ruayalın sözlərinə görə, uğur qazanılacağı halda 5 milyon nəfəri, və ya ölkə əhalisinin 8 faizini elektriklə təmin etməyə imkan yaranacaq.

«Günəş yolu» üçün xüsusi örtük 5 il ərzində Fransanın nəhəng Colas şirkəti tərəfindən Fransanın Milli Günəş Enerjisi İnstitutu (İNES) ilə birgə işlənib hazırlanıb. Örtük cəmi 7 mm qalınlığında, eni 15 sm olan polikristal silisium panellərdən ibarətdir.

İqnalina AES

Panellər günəş şüasını buraxan xüsusi polimerlə örtülüb. Örtüyü hamar asfalt yola salmaq olar. O, rütubətdən qorxmur, hətta yük maşınlarının ağırlığına dözür. Mütəxəssislərin verdikləri məlumata görə, örtük 10 ilədək müddətdə təmirsiz ötüşə bilir, xarici təsirlər az olduqda isə bu müddət 20 ilə çata bilir.

4 metr uzunluğunda belə «günəş yolu» bir ev təsərrüfatını elektriklə təmin etmək üçün kifayətdir (istilik nəzərə alınmaqla, ildə 1000 günəşli gün olduqda). Fransa hökuməti beş il ərzində 10 kilometr uzunluğunda yolu günəş panelləri ilə örtməyi planlaşdırır. Bu isə ölkə əhalisinin 8 faizini elektriklə təmin etmək üçün kifayətdir.

«Günəş yol» ideyası heç də yeni deyil. 2014-cü ildə Niderlandda 72 metrlik günəş panellərindən ibarət «SolaRoad» layihəsi həyata keçirilib. İl ərzində o, 9800 kVt enerji istehsal edib və gözlənildiyindən də yaxşı nəticəyə nail olub. Bununla belə, bu cür panellərin səmərəliliyi damlarda quraşdırılan panellərin göstəricilərindən iki dəfə aşağı olub.

Fransanın panel mütəxəssislərinin saytında göstərildiyi kimi, onların faydalı iş əmsalı (15 faiz) adi panellərdə olduğundan (18-19 faiz) aşağıdır, 1 Vt qoyuluş gücünün dəyəri isə 6 avroya bərabərdir.

Seqolen Ruayal bildirib ki, yollara ilk panellərin düzülməsinə yazın ortalarında başlanacaq, layihənin maliyyələşdirilməsi isə qazıntı yanacağına vergilərin yüksəldilməsi yolu ilə həyata keçiriləcək. Nazirin sözlərinə görə, bu cür vergi təmiz energetikanın inkişaf etdirilməsi üçün 200-300 milyon avro yığmağa imkan verəcək.

BRAZİLİYA

«Enel Green Power» günəş elektrik stansiyası inşa edəcək

♦ «Enel Green Power»(EGP - İtaliya) şirkəti Braziliyanın şimal-şərqində yerləşən Baiya ştatında ümumi qoyuluş gücü 254 MVt olan «Ituverava» günəş elektrik stansiyasının tikintisini davam etdirir.

Bu stansiya «Enel Green Power» şirkətinin inşa etdiyi günəş elektrik energetikası obyektləri arasında ən böyüyüdür.

«Ituverava»nın tikintisi «Enel Green Power»in günəş energetikası sahəsində liderlik mövqeyinə çıxmasına hazır olduğunu bir daha təsdiqləyir, - deyə EGP-nin baş direktoru Françesko Venturini bildirib. – Bütün dünyada şirkətimizin 1650 günəş energetikası layihəsi var, onların bir hissəsi reallaşma mərhələsindədir, və ya artıq reallaşıb. Bu isə yaxın illərdə günəş elektrik energetikasının daha da inkişaf etdirilməsi ilə əlaqədar bizim artan öhdəliyimizin nümayişi deməkdir».

Sözügedən elektrik stansiyasının tikintisi 2017-ci ildə başa çatdırılacaq. İstismara verildikdən sonra «Ituverava» ildə 550 qiqavat-saat enerji istehsal edəcək. Bu isə 268 min Braziliya ev təsərrüfatının elektrik enerjisinə olan tələbatını ödəməyə və ildə atmosferə 185 min ton karbon qazı buraxılmasının qarşısını almağa imkan verəcək. Günəş elektrik stansiyasının tikintisi üçün tələb edilən investisiyanın həcmi 400 milyon ABŞ dolları həcmində olmalıdır.

İndi EGP-nin Braziliyada ümumi qoyuluş gücü 418 MVt-yə bərabərdir. Bunun da 93 meqavatı su energetikasının, 313 meqavatı külək elektrik stansiyalarının və 12 meqavatı günəş energetikasının payına düşür. Ümumi qoyuluş gücü 444 MVt olan obyektlərin tikintisi davam etdirilir. Şirkət hazırda Braziliyada günəş energetikası sahəsində aparıcı yer tutur.

CƏNUBİ KOREYA

Şirkət 435 milyon dollar investisiya qoyur

♦ Məişət elektronikası istehsalı sahəsində tanınan «LC Electronics» şirkəti 2020-ci ilədək günəş panelləri istehsalının ümumi gücünü 3 QVt-dək artırmağı planlaşdırır.

Şirkət günəş enerjisi sahəsində fəaliyyət göstərən müəssisəsini genişləndirmək barədə qərar qəbul etdiyini bildirib, Cənubi Koreyada günəş panelləri istehsalının inkişafına milyonlarla investisiya ayırdığını bəyan edib.

«LC Electronics» Koreyanın Kumi şəhərində yerləşən günəş panelləri istehsalı müəssisəsini genişləndirmək üçün 435 milyon ABŞ dolları həcmində investisiya qoyulması barədə həmin şəhərlə memorandum imzalayıb. Hazırda mövcud olan səkkiz istehsal xəttinə altı yeni xəttin əlavə edilməsi gücləri 2018-ci ildə 1 QVt-dən 1,8 QVt-yə, 2020-ci ildə 3 QVt-yə çatdırmağa imkan verəcək. Buraxılan panellər xüsusi ev təsərrüfatları üçün nəzərdə tutulub.

«Bu investisiyaların nəticəsi olaraq «LC Electronics»in günəş enerjisi bölmələri gələcəkdə energetika bazarında daha qətiyyətli mövqe tuta biləcək, - deyə şirkətin prezidenti və energetika mərkəzi bölməsinin başçısı Li Sanq-bonq bildirib. - Şirkətimiz son iki onillik ərzində günəş enerjisi texnologiyalarının inkişafında fəal iştirak edib və biz əminik ki, kütləvi istifadəçilər öz evlərində energetika məsələlərinin həllində günəş batareyalarına ciddiliklə yanaşacaqlar».

«LC Electronics»in günəş enerjisi bölmələri 1995-ci ildən işləməyə başlayıb, 2014-cü ilin noyabrında şirkət günəş enerjisi, enerjinin toplanması və işıqlandırma sahəsində biznesin idarə olunması üçün energetika biznes-mərkəzi açıb. 2015-ci ilin avqustunda «LC Electronics» bu istiqamətdə ən qabaqcıl qərar təqdim edib. Ötən ilin sonlarında şirkət günəş enerjisi sahəsində xüsusi mükafata layiq görülüb.

Materialı hazırladı: V.Məmmədov

«Azərbaycan İES» MMC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini – baş dispetçer **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Mingəçevir SES Silsiləsi» MMC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini – baş dispetçer **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Şəki Elektrik Stansiyası» MMC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini – baş dispetçer **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Mingəçevir REŞ» MMC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini – baş dispetçer **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Sumqayıt REŞ» MMC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini – baş dispetçer **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Gəncə REŞ» MMC-nin rəhbərliyi və kollektivi Mərkəzi Dispetçer İdarəsinin rəis müavini – baş dispetçer **Sadir Tağıyevə,**

QARDAŞININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ALLAH RƏHMƏT ELƏSİN.

İTMİŞDİR

Abbasov Ərəstun Ziyafəddin oğlunun adına verilmiş 2/366A nömrəli qeydiyyat vəsiqəsi, **Məmmədov Elgün Salah oğlunun** adına verilmiş JN-6648V nömrəli, İsmayılov **Vasif Məcnun oğlunun** adına verilmiş JN-6591V nömrəli mülkiyyət Şəhadətnamələri itdiyi üçün etibarsız sayılır.

Təsisçi: **“Azərenerji” ASC**
Nəşir: **“Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC**

Baş redaktor: **Elşən ƏLİYEV**

Redaksiyanın ünvanı: AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
Telefonlar: (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

“Azərbaycan işıqları” qəzetinin kompüterlərində yığılıb səhifələnir, **“CBS polygraphic production”** mətbəəsində çap olunur. Tiraj: 1000

Çapa imzalanıb:
16 mart 2016-cı il, saat 18.30.
Məsul növbətçi: **S.QARAYEV**